Tez-tez verilən suallar:

TamKart məhsulları haqqında ətraflı məlumatı haradan almaq olar?

TamKart məhsulları ilə əlaqədar https://tamkart.az/cards linkinə daxil olaraq məlumat almaq mümkündür.

TamKart şəxsi kabinetinə necə daxil ola bilərəm?

TamKart şəxsi kabinetinə artıq ABB mobile tətbiqindən daxil olmaq mümkündür.

ƏDV Geri Al hesabıma necə nəzarət edə bilərəm?

Qeyd olunan linkə https://edvgerial.abb-bank.az/az daxil olaraq, FİN kod və əlaqə nömrəsini qeyd etdikdən sonra, ABB Mobile tətbiqində ƏDV geri al hesabınız əks olunacaq.

ƏDV Geri al haqqında ətraflı məlumatı haradan almaq olar?

ƏDV Geri al xidməti ilə bağlı ətraflı məlumat üçün: https://edvgerial.abb-bank.az/az/how-to-use

FİN kod nədir?

FİN – şəxsiyyət vəsiqəsinin Fərdi İdentifikasiya Nömrəsidir. FİN kod şəxsiyyət vəsiqənizin fotoşəkliniz olan üzündə, sağ aşağı küncündəki, axırdan birinci rəqəmi çıxmaqla, sonrakı 7 rəqəm və hərflərdən ibarət koddur. Yeni nəsil şəxsiyyət vəsiqələrində isə FİN kod - Fərdi İdentifikasiya Nömrəsi olaraq qeyd olunmuşdur.

E-manatla kart hesabını necə artırmaq olar?

Kart hesabını E-manat vasitəsilə Müştəri kodu/Hesab nömrəsi/Kart nömrəsi və FİN kod əsasında artıra bilərsiniz.
FİN - şəxsiyyət vəsiqəsinin Fərdi İdentifikasiya Nömrəsidir.
Müştəri kodu isə Hesab nömrənizdə "944" sonra ardıcıl 7 rəqəmdir.
33XXXXX944111111XXX
E-manat ilə yalnız AZN valyutasında olan hesaba vəsaiti AZN ilə mədaxil etmək mümkündür.

Şəxsiyyət vəsiqəsinin seriya nömrəsi harada qeyd edilir?

Kartın məxfi sözü harada qeyd olunur?

Kartın məxfi sözü kart sifariş edilən zaman müştəri tərəfindən qeyd olunur və identifikasiyanın əsas meyarlarından sayılır. Kartın məxfi sözü ABB mobile tətbiqinin "Kart məlumatları" bölməsində əks olunur.

Kart nömrəsi harada göstərilir?

Kart nömrəsi kartın üzərindəki 16 rəqəmdən ibarətdir.